# «Elektron imza və elektron sənəd haqqında» Azərbaycan Respublikası Qanununun icrasının təmin edilməsi barədə

# Azərbaycan Respublikası Prezidentinin Fərmanı

1. Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 14 may tarixli, 580 nömrəli Fərmanı ilə təsdiq edilmiş «Milli Depozit Sistemi haqqında» Əsasnamənin 3.10-cu bəndinin «m» yarımbəndindən *«-rəqəmli»* sözü çıxarılsın.

2. Müəyyən edilsin ki:

2.1. «Elektron imza və elektron sənəd haqqında» Azərbaycan Respublikası Qanununun 1.1.14-cü, 8-ci, 9.1-ci, 9.3-cü, 9.4-cü, 9.6-cı, 9.7-ci, 16.0.3-cü, 17.1.3-cü, 17.3.7-ci, 17.3.8-ci, 17.3.9-cu, 19.2-ci, 19.4-cü, 19.5-ci, 31.4-cü, 33.1-ci, 33.2-ci, 33.3-cü (33.3.3-cü maddədə müəyyən edilmiş məsələlər istisna olmaqla) maddələrində nəzərdə tutulmuş «müvafiq icra hakimiyyəti orqanları»nın səlahiyyətlərini Azərbaycan Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi həyata keçirir;

2.2. həmin Qanunun 33.3-cü maddəsində nəzərdə tutulmuş «müvafiq icra hakimiyyəti orqanları»nın səlahiyyətlərini 33.3.3-cü maddədə müəyyən edilmiş məsələlərə münasibətdə Azərbaycan Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi və Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi öz səlahiyyətləri daxilində həyata keçirirlər.

3. Bu Fərman dərc edildiyi gündən qüvvəyə minir.

***Azərbaycan Respublikasının Prezidenti***

***İlham ƏLİYEV.***

***Bakı şəhəri, 3 iyun 2005-ci il.***

***№ 246.***

***«Azərbaycan» qəzetində dərc edilmişdir (11 iyun 2005-ci il, № 132) («VneshExpertService» LLC).***

***«Azərbaycan Respublikasının Qanunvericilik Toplusu»nda dərc edilmişdir (30 iyun 2005-ci il, № 6, maddə 483) («VneshExpertService» LLC).***